https://doi.org/10.59849/3006-1342.2024.2.72
UOT 902

*A.A.İsayeva*
*AMEA Gəncə bölməsi*
*Gəncə ş., H.Əliyev pr., 419*
*E-mail: ayten.isayeva.1998@bk.ru*

# GƏNCƏNİN QƏDİM DÖVR ARXEOLOJİ ABİDƏLƏRİNİN TƏDQİQİNƏ DAİR

*Məqalədə Gəncə ərazisində qədim dövrə aid arxeoloji abidələrin tədqiq olunmasından bəhs olunur. Neolit dövründən başlayaraq sonralar eneolit və tunc dövrlərinə aid maddi-mədəniyyət nümunələrinin tapılması Gəncənin qədim tarixi ilə bağlı ətraflı məlumat verir. Neolit dövrünə aid Gəncə ətrafındakı Gillikdağ emalatxanasından və düşərgəsindən aşkar edilən dəvəgözü və çaxmaqdaşı alətləri, İ.Cəfərzadənin Baxçakürd kəndindən tapdığı daş çömçə və isgənənin varlığı bu ərazidə yaşamış insanların eramızdan əvvəl VII-VI minilliklərə aid neolit mədəniyyətinin yaradıcılarından biri olduğunu söyləməyə əsas verir. Məhz e.ə IV-III minilliklərdə Gəncə eneolit mədəniyyəti əsasında yaranmış ilk tunc dövrü mədəniyyəti – Kür-Araz mədəniyyətinin əsas mərkəzlərindən biri olmuşdur. Gəncə ətrafı kurqan abidələrində aparılan arxeoloji tədqiqatlar burada dairəvi quyularda adi dəfnetmə və kremasiya adətlərinin olduğunu izləməyə imkan vermişdir. Gəncə-Qazax bölgəsinin İlk Tunc dövrü abidələrindən xeyli sayda metal əşya-silahlar, əmək alətləri, bəzək əşyaları, gil qəliblər, ərinti qalığı və.s. aşkar edilmişdir. 1908-1920-ci illərdə V.Ter-Qukasov və 1930-1940-cı illərdə Y.İ.Hummel Gəncəçay ərazisində arxeoloji kəşfiyyat işləri aparmış və Azərbaycanın tunc dövrü tarixinə dair bir sıra maddi-mədəniyyət abidələri aşkar etmişlər. Bu materiallar Gəncənin neolit, tunc və dəmir dövrünün əvvəlləri haqqında qiymətli məlumat verirlər və axtarışların nəticələri Gəncənin qədim tarixinin öyrənilməsi dairəsini xeyli genişləndirdi.*

*Açar sözlər:* Qədim Gəncə, arxeoloji tədqiqatlar, neolit dövrü, eneolit dövrü, tunc dövrü

*Giriş*

Gəncə Azərbaycanın ən qədim tarixə malik olan şəhərlərindən biridir. Uzun müddət ərzində Gəncə bölgəsində aparılan arxeoloji kəşfiyyat və tədqiqat işləri nəticəsində müxtəlif maddi mədəniyyət qalıqları aşkar olunaraq tədqiq olunmuşdur. Gəncənin qədim dövr arxeoloji abidələrinin tədqiqi neolit dövründən başlamışdır. Sonralar eneolit və tunc dövrünə aid arxeoloji materialların tapılması Gəncənin qədim dövr abidələri haqqında ətraflı məlumat verir.

***Əsas hissə. Gəncə neolit dövründə.*** Azərbaycanda Neolit dövrü qalığı ilk dəfə 1938-1941-ci illərdə Gəncəçay rayonunda Gillikdağda 78 saylı çaxmaqdaşı emalatxanasında qeydə alınmışdır [1, s. 337]. Burada qədim çaxmaqdaşı istehsalı ile bağlı izlər, istehsal tullantıları, daş çəkic, balta, müxtəlif lövhələrə daha çox təsadüf olunmuşdur [2, s. 40]. Gillikdağ Kiçik Qafqaz dağlarının Kür düzənliyinə doğru gələn qollarından biridir. Gillikdağın daşından hazırda yerli əhali inşaatda geniş istifadə edir. Daş istehsalı zamanı burada dəfələrlə mağara formalı boşluqlar aşkara çıxarılmışdır.Bu boşluqların bir neçəsi Y.Hummel tərəfindən tədqiq edilmişdir [10, s. 24]. Y.Hummel 78 nömrəli emalatxananı 133 nömrəli düşərgə ilə əlaqələndirmişdir. 133 nömrəli düşərgə ikinci neolit abidəsidir [10, s. 28]. Bu düşərgədə çaxmaqdaşından bıçaqvari lövhələr, qaşovlar, daş toxa, dəvəgözündən əmək alətləri aşkar edilmişdir. Bu alətlərdən təsərrüfatın müxtəlif sahələrində və məişətdə istifadə olunmuşdur [2,

s. 40]. Gəncəçay rayonunda neolit dövrünə aid qeyd etdiyimiz bu abidələrdən başqa bir neçə tapıntılar da məlumdur. Bunlardan Kirovabad yaxınlığında Gəncə çayı sahilində yer səthindən 3 m dərinlikdə tapılmış daş baltanı göstərmək olar [10, s. 29].

İ.Cəfərzadənin Gəncə ətrafındakı Baxçakürd kəndindən tapdığı daş çömçə və isgənənin varlığı bu ərazidə yaşamış insanların eramızdan əvvəl VII – VI minilliklərə aid neolit mədəniyyətinin yaradıcılarından biri olduğunu söyləməyə əsas verir [9, s. 14-15].

**Gəncə bölgəsində eneolit mədəniyyəti.** Gəncə bölgəsində neolit dövründə başlamış həyat tərzi e.ə V minillikdə eneolit dövründə də davam etmiş, yeni iqtisadi inkişaf üçün zəmin yaranmışdır. Arxeoloji tədqiqatların nəticəsi sübut edir ki, bu dövrdə bölgənin əsas əhalisi oturaq həyat tərzi keçirmiş, əkinçilik və maldarlıqla məşğul olmuşlar. E.ə. V minillikdə Gəncə bölgəsində bizə məlum olan ev heyvanlarının hamısının əhliləşdirildiyi arxeoloji qazıntılar zamanı aşkarlanmış osteoloji qalıqlarla təsdiqlənir [8, s. 217].

Gəncəçay rayonunda eneolit dövrünə aid tapıntılara nümunə olaraq Y.Hummelin qazmış olduğu 78 nömrəli emalatxananın orta təbəqəsi, 36 nömrəli kurqanın alt təbəqəsində yerləşən dairəvi qəbirlər, 139 nömrəli qəbir, 96 və 10 nömrəli kurqanlar, 20 nömrəli qəbiristanlığı göstərmək olar [10, s. 30].

Gəncəçay rayonu qəbir abidələri dəfn adətinə görə iki qrupa bölünür:

1) İnqumasiya-ölülərin olduğu kimi basdırılması.

2) Kremasiya-ölülərin yandırılaraq dəfn edilməsi [10, s. 31].

Birinci qrupa aid olan qəbirlərdə ölülərin ətrafı çay daşları ilə hörülmüş və ölülər bükülü vəziyyətdə basdırılmışdır. İki ölünün başı altında yastı çay daşı qoyulmuşdur [10, s. 32].

Gəncəçay rayonu eneolit dövrü qəbir abidələrinin ikinci qrupuna aid kremasiya adəti müşahidə edilən qəbirlər E.Reslerin və Y.Hummelin apardığı arxeoloji qazıntılar zamanı tədqiq edilmişdir. E.Reslerin tədqiq etdiyi eneolit abidəsi 31 nömrəli kurqan Xanların cənub-şərqində Hacıkəndə gedən yolda yerləşir. Kurqanın hündürlüyü 3,65 m-dir. Onun orta hissəsində E.Resler 4,65 sm enində bir xəndək qazdırmışdır. Buradan odda yanmış qırmızımtıl rəngli saxsı parçaları və bir ədəd bütöv qalmış birqulplu gil qab tapılmışdır [10, s. 33-34].

Kremasiya adəti müşahidə edilən qəbir abidələrindən biri də Y.Hummel tərəfindən tədqiq edilən 10 nömrəli kurqandır. Kurqan qazılan zaman onun mərkəz hissəsində bir ədəd sal daş tapılmışdır. Daşın üzərində yanmış insan sümüklərinə, külə və külli miqdarda kömürə təsadüf olunmuşdur. Bundan başqa buradan bir ədəd gil qab da tapılmışdır. Gəncəçay rayonunda kremasiya adəti müşahidə edilən abidələrdə avadanlıq əsasən gil qablardan ibarətdir [10, s. 36].

Gəncəçay rayonunun eneolit dövrü kurqan qəbirlərində tapılan silindr boğazlı və çiyni üzərində bir cüt yarımdairəvi qulpları olan gil qablar Kür-Araz eneolit mədəniyyəti üçün səciyyəvi olan gil qablar qrupuna daxildir [10, s.38].

**Gəncənin tunc dövrü maddi-mədəniyyət abidələri.** Gəncəçay rayonunda ilk tunc dövrünə aid olan qəbir abidələrinə Y.Hummelin qazdığı 12 nömrəli qəbir, Zurnabadda açılan qəbir və Reslerin tədqiq etdiyi 13 nömrəli kurqan aiddir [10, s. 43].

Gəncəçay rayonunda Y.Hummel tərəfindən qazılan 12 №-li Kurqanaltı qəbir kamerası dördkünc formalı olub, cənub-qərb istiqamətində qazılmışdır. Qəbirin ölçüləri 2,60 x 1,55 x 1,40 m-dir. Qəbir kamerasının üzəri taxta parçaları ilə örtülmüşdür. Kameranın cənub-şərq hissəsində qoyun skeletinin qalıqları aşkar olunmuşdur. Qəbir avadanlığı 1 ədəd mis əşya, 18 gil qab və bir neçə çaxmaqdaşı qalıqlarından ibarətdir. Kurqan e.ə. II minilliyin birinci yarısına aid edilmişdir [3, s. 150]. 1899-cu ildə Xanların cənubunda Reslerin qazdığı kurqanlar içərisində 13 nömrəli kurqan öz avadanlığına görə digərlərindən fərqlənir. Qəbrin içərisində 83 sm qalınlığında kömür, kül, insan sümükləri və qab parçalarından ibarət bir təbəqə müəyyən olunmuşdur. Bu təbəqə ölü yandırılan zaman meydana gəlmişdir [10, s. 44].

Gəncəçay rayonunda ilk tunc dövrünə aid olan abidələrdən biri də Zurnabadda aşkar olunmuş qəbirdir. Y.Hummelin məlumatına görə qəbrin üzərində daşdan və gildən kiçik bir təpə düzəldilmişdir. Təpənin altındakı qəbirdə insan sümükləri, 4 ədəd gil qab, tunc bəzək əşyaları və s. aşkar edilmişdir. Qəbirdən tapılan gil qablar əldə hazırlanmışdır və rəngi qırmızıdır [11, s. 45].

1908-1920-ci illərdə V.Ter-Qukasov Gəncəçay ərazisində arxeoloji qazıntı işləri aparmış və tunc dövrünə dair bir sıra maddi-mədəniyyət abidələri aşkar etmişdir. V.Ter-Qukasov 1913-cü ildə Quşçu kəndi yaxınlığında apardığı qazıntılar nəticəsində daş qutu qəbirlərindən əldə etdiyi abidələri və yerli əhalidən əldə etdiyi tuncdan hazırlanmış əşyaları, gil qab qalıqlarından ibarət materialları bir yerə toplamış və Gürcüstan Dövlət muzeyinə bağışlamışdı [12, s. 7].

Gəncə bölgəsinin son tunc dövrü arxeoloji abidələrinin bir qrupu qəbir abidələrindən ibarətdir. Onları əsasən kurqan və daş qutu qəbirlər təşkil edir. Kurqanlar şərqdə Gəncə çayından başlayaraq Kürək çayınadək olan düzənlik və dağətəyi zonada, qərbdə isə Gəncə və Qoşqar çayları arasındakı ərazidə yerləşir. V.A.Skinder Gəncədən Çovdara qədər olan ərazidə qədim qəbiristanlığın olduğunu göstərmişdir. Gəncəçay rayonundan qərbdə, Şamxor çayının düzənlik hissəsində də kurqanlara təsadüf olunmuşdur [3, s. 195].

Rayonun dağlıq hissəsində kurqanlar daş qutu qəbirlərlə əvəzlənmişdir. Kurqanların hündürlüyü 2,5 m-ə çatır və xarici görünüşünə görə yastı-dairəvi, oval və konus formalı təpələrə oxşayır [10, s. 63].

Kurqanaltı qəbirlər dördkünc formalı olub, dəfndən sonra torpaq və ya daşla doldurulur, üzəri isə sal daşla, ya da taxta parçaları ilə örtülürdü. Bəzən qəbirlər taxta örtüklə bir neçə mərtəbəyə bölünür və hər mərtəbədə dəfn aparılırdı. Bəzi hallarda ölü ancaq aşağı mərtəbəyə qoyulur, yuxarıda isə qəbir avadanlığı və qurban kəsilmiş heyvanlar yerləşdirilirdi. Kurqanaltı qəbirlərin sayı olduqca müxtəlifdir. [3, s.196]. Adətən bir kurqan altında tapılan qəbirlərin sayı 10-dan çox olmur. Ancaq E.Reslerin Bayan kəndi yaxınlığında aşkar etdiyi kurqanda 18 qəbir tapılmışdır. Bunlardan 16-sı daş qutu, ikisi isə torpaq qəbirdir [10, s.64].

N.İ.Nərimanov yazır ki, Y.N.Hummel Gəncəçay rayonu ərazisində on ilə yaxın qazıntı işləri aparmışdır. O bildirmişdir ki, kurqanaltı qəbirlərin yerləşməsi zamanı bir nöqtədən müxtəlif istiqamətlərə şüalar aparılmış və bu şüalar üzərində qəbir çuxurları qazılmışdır. Bu qəbir çuxurları elə qazılmışdır ki, $S_1$ adlanan mərkəz nöqtədən aparılan şüa qəbirlərin ya diaqonalından ya da ortasından keçməlidir. Əgər şüa qəbrin diaqonalı ilə uyğun gəlirsə həmin qəbirdə kişi, qəbirin ortasından keçirsə o qəbirdə qadın dəfn olunmuşdur. Tədqiqatçının dediyinə görə mərkəz nöqtə kurqanın günəşi olmuşdur. Qəbirlərə qoyulan ölülər həmin nöqtəyə çevrilmiş vəziyyətdə basdırılmışdır [4. s. 87-88].

Gəncəçay rayonu son tunc dövrü abidələrində şəxsi əşyalara, ərzaq qalıqlarına, heyvan sümüklərinə, meyvə qalıqlarına, gil qablara və s. rast gəlinir. Bu onu göstərir ki, qədim insanlar axirət dünyasına inanmış və bununla əlaqədar olaraq ölünü lazımi əşyalarla birlikdə qəbirə qoymuşlar. Buna misal olaraq, Kirovabadətrafı düzənlikdəki kurqanlardan E.Reslerin tədqiq etdiyi 4 nömrəli kurqanı göstərmək olar. Kurqanın hündürlüyü 2 m-ə yaxındır. Kurqanın təpəsi daş və qumdan qurulmuşdur. Qəbirdən 6 ədəd gil qab aşkar olunmuşdur [10, s. 85].

Gəncəçay rayonunun son tunc dövrü arxeoloji abidələri üçün yarımqazma tipli evləri də misal göstərmək olar. Onlar əsasən dördkünc planlıdır və inşaat materialı kimi çay daşlarından istifadə olunmuşdur. Divarlar iki sıra daşla hörülərək, arası kiçik həcmli daşlarla doldurulmuşdur. Bu rayonda tətbiq edilən balıqbeli texnikası diqqəti cəlb edir. Divarın daşları bir sırada bir tərəfə, o biri sırada isə əks tərəfə qoyulmaqla inşa edilmişdir [3, s.210].

Gəncəçay rayonu Lüləli dərəsində tədqiq olunan 2 №-li yaşayış yerində evlər düzbucaqlı və dairəvi formalı yarımqazmalardan ibarətdir. Lakin, 1 №-li yaşayış yerindən

fərqli olaraq, burada, binaların divarları daş tikintilərlə möhkəmləndirilməmişdir. Evlərin tavanı döşəməyə basdırılan dirəklər vasitəsilə saxlanmışdır. Düzbucaqlı evlərdə dam örtüyünün iki çatılı, dairəvi evlərdə isə konusvari olduğu güman edilir. Gəncəçay rayonundakı 1 №-li yaşayış yerində evlərin çay boyu düzümü, Lüləli dərəsində isə müəyyən sıra ilə düzülməsi qeydə alınmamışdır. Şübhəsiz ki, evlər dar küçələr vasitəsilə bir-biri ilə bağlanmışdır. Qazax rayonundakı Töyrətəpə yaşayış yerində divarları çubuqdan hörülərək gillə suvanmış evlər də aşkar edilmişdir. Bu zonada yerləşən Sarıtəpə, Babadərviş yaşayış yerlərində aşkar olunan evlər dördkünc formalıdır. Binaların divarları çay daşlarından hörülərək, gil məhlulu ilə bərkidilmişdir [3, s. 210].

1930-1940-cı illərdə Y.İ.Hummel Gəncəçay ərazisində arxeoloji kəşfiyyat işləri aparmış və tunc dövrünə dair bir sıra qəbirlər və maddi-mədəniyyət nümunələri aşkar edərək tədqiq etmişdir. O, Zaqafqaziyanın arxeoloji tədqiqi tarixində ilk dəfə olaraq paleobotanika materiallarına diqqət yetirdi. Beləliklə, 30-cu illərin ikinci yarısında Ə.Ələkbərov, İ.Cəfərzadə, Y.Hummelin başçılığı altında aparılan arxeoloji qazıntı işləri nəticəsində çoxlu miqdarda maddi-mədəniyyət abidələri aşkar edildi. Beləliklə bu axtarışların nəticələri Gəncənin qədim dövr arxeoloji tarixinin öyrənilməsiində mühüm rol oynadı [12, s. 12].

*Nəticə*

Beləliklə, arxeoloji tədqiqatların nəticələri Gəncə bölgəsində yaşayışın hələ daş dövründən başlandığını sübut edir. Eradan əvvəl VII-VI minilliklərə aid çoxsaylı, müxtəlif məişət və sənətkarlıq nümunələrinin qədim Gəncə ərazisindən aşkar olunması, habelə sonrakı dövrlərə aid maddi sübutların tapılması da bu elmi fikri təsdiq etmiş olur. [7, s. 14-15].

Həmçinin, tədqiqatlar e.ə IV-III minilliklərdə Gəncənin dağətəyi ərazilərində məskunlaşmanın artdığını, yeni yaşayış yerlərinin meydana gəldiyini də sübuta yetirir. Burada mövcud olan dəfn adətləri e.ə. III minillikdə bölgədə qədim tayfaların yaşadıqlarını göstərir. Arxeoloji qazıntıların nəticələri Gəncə ərazisində neolit dövründən başlayaraq sonrakı dövrlərə qədərki vaxtda maddi mədəni varisliliyi və ənənəviliyi izləməyə imkan verir [6, s. 7].

Bütün bu arxeoloji tədqiqatların nəticələri bir daha göstərir ki, Gəncə Azərbaycanın qədim və zəngin tarixə malik ərazilərindən biridir.

ƏDƏBİYYAT

1. Azərbaycan Arxeologiyası. VI cilddə. I cild. Daş dövrü. Bakı, “Şərq-Qərb”, 2008, 438 s.
2. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) I cild. Z.Bünyadov və Y.Yusifovun redaktəsilə Bakı, “Apostroff”, 2014, 720 s.
3. AMEA Naxçıvan bölməsi, Naxçıvan Dövlət Universiteti, Vəli Baxşəliyev, Azərbaycan Arxeologiyası I cild, Bakı, 2006, 236 s.
4. Avşarova İ. Azərbaycanın tunc dövrü qəbirlərində “Günəş” inancı izləri Azərbaycan Arxeologiyası, Xəzər Universiteti Nəşriyyatı, cild 22, № 1, 2019.
5. Gəncə və onun ətrafının tarixi arxeoloji tədqiqi (ən qədim zamanlardan XIX əsrə qədər), Gəncə, Elm 2008, 296 s.
6. Gəncənin yer altında gizlənmiş qədim və zəngin tarixi açılır /A.Məmmədov, Müsahibəni apardı Rüstəmov Əvəz // Xalq qəzeti, 2014 18 may, s. 7.
7. Həsənov E. Gəncə İmamzadə türbəsi: Kitab Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin 20-ci ildönümünə həsr olunur (tarixi-etnoqrafik tədqiqat) E.Həsənov; elmi red. F.Əliyev; AMEA, Gəncə Regional Elmi Mərkəz, Bakı: Elm və təhsil, 2012, 265 s.
8. Məmmədov A. Gəncə antik və ilk orta əsrlərdə //Gəncə tarixinin aktual problemləri, II elmi-praktik konfransın materialları, Gəncə 2010.

9. Məmmədov A. Gəncə və onun ətrafının tarixi-arxeoloji tədqiqi (ən qədim zamanlardan XIX əsrə qədər), Gəncə, Elm 2008, 296 s.
10. Nərimanov İ. “Gəncəçay rayonunun arxeoloji abidələri”. Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1958, 142 s.
11. Rüstəmova L. Gəncə-Qazax bölgəsinin İlk Tunc dövrü metal bəzək əşyaları. Azərbaycan Arxeologiyası Cild 23, №1, Xəzər Universiteti Nəşriyyatı 2020.
12. Səfərov Y. Qədim Azərbaycan: nə bilirik Azərbaycan Dövlət Nəşriyyatı Bakı, Azərnəşr, 1989, 95 s.

УДК 902

*А.А.Исаева*
*Гянджинское Отделение НАНА*

## ОБ ИССЛЕДОВАНИИ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ ДРЕВНЕЙ ЭПОХИ ГЯНДЖИ
### *РЕЗЮМЕ*

*Ключевые слова:* древняя Гянджа, археологические исследования, период неолита, период энеолита, бронзовый век

В статье говорится об исследовании археологических памятников древнего периода в Гянджинском районе. Обнаружение образцов материала и культуры периода неолита, а затем энеолита и бронзового века дает подробную информацию о древней истории Гянджи. Верблюжий глаз и кремневые орудия, обнаруженные в неолитической мастерской и стоянке Гиликдаг близ Гянджи, каменный ковш и топор, найденные И. Джафарзаде в селе Бахчакурд, дают основание говорить о том, что люди, жившие в этой местности, были одними из создателей Неолитическая культура VII-VI тысячелетий до нашей эры. Это был один из главных центров первой культуры бронзового века - Кура-Аразской культуры, возникшей на основе гянджинской энеолитической культуры в IV-III тысячелетиях до нашей эры. Археологические исследования, проведенные в курганных памятниках вокруг Гянджи, позволили проследить существование обычных обычаев захоронения и кремации в круглых колодцах. Из памятников первого бронзового века Гянджи-Казахского региона сохранилось большое количество металлических предметов-оружия, орудий труда, украшений, глиняных форм, остатков сплавов и т. д. был обнаружен. В 1908-1920 годах В. Тер-Гукасов и в 1930-1940 годах Ю. И. Гуммель провели археологические исследования в районе Гянджачая и обнаружили ряд материальных и культурных памятников, связанных с историей Азербайджана бронзового века. Эти материалы дают ценные сведения о начале неолита, бронзового и железного века Гянджи, а результаты поисков значительно расширили рамки изучения древней истории Гянджи.

UDC 902

*A.A.Isaeva*
*Ganja Branch of ANAS*

ANCIENT ERA ARCHAEOLOGICAL MONUMENTS OF GANJA
ABOUT THE RESEARCH
*SUMMARY*

*Key words:* Ancient Ganja, archaeological research, Neolithic period, Eneolithic period, Bronze age

The article talks about the research of archaeological monuments belonging to the ancient period in the Ganja area. The discovery of material and culture samples from the Neolithic period and later from the Eneolithic and Bronze Age provides detailed information about the ancient history of Ganja. The camel's eye and flint tools discovered from the Neolithic Gillikdag workshop and camp near Ganja, the stone ladle and ax found by I. Jafarzade from the Bakhchakurd village give reason to say that the people who lived in this area were one of the creators of the Neolithic culture of the 7th-6th millennia BC. It was one of the main centers of the first Bronze Age culture - Kura-Araz culture, which arose on the basis of the Ganja Eneolithic culture in the IV-III millennia BC. The archeological research conducted in the mound monuments around Ganja allowed us to trace the existence of the usual burial and cremation customs in circular wells. From the monuments of the First Bronze Age of Ganja-Kazakh region, a large number of metal objects-weapons, labor tools, ornaments, clay molds, alloy remains, etc. has been discovered. In 1908-1920, V.Ter-Gukasov and in 1930-1940, Y.I.Hummel conducted archaeological exploration in the Ganjachay area and discovered a number of material and cultural monuments related to the Bronze Age history of Azerbaijan. These materials provide valuable information about the beginning of the Neolithic, Bronze and Iron Age of Ganja, and the results of the searches have greatly expanded the scope of studying the ancient history of Ganja.

***Daxil oldu: 16.09.2024-cü il***